DOI: https://doi.org/10.36719/2663-4619/112/189-193

**İlqar Dadaşov**
Fövqəladə Hallar Nazirliyinin Akademiyası
https://orcid.org/0000-0002-1533-1094
UOT 35.08-057.17
ilgardadashov.69@gmail.com
**Hüseyn Piriyev**
Fövqəladə Hallar Nazirliyinin Akademiyası
https://orcid.org/0009-0005-9632-5508
hpiriyev95@mail.ru

# Neftayırma müəssisələrində fövqəladə hadisə təhlükəsi yarandıqda obyekt qüvvələrinin fəaliyyət rejimləri üzrə yerinə yetirdiyi tədbirlərin ardıcıllığı

**Xülasə**

Nefemalı müəssisələrində baş verən qəzalar ekoloji fəsadlarla yanaşı, insan həyatına və istehsalat prosesinə ciddi təhlükə yaradır. Neftayırma müəssisələrində təhlükəsizliyin təmin edilməsi və qəza risklərinin minimuma endirilməsi müasir sənayenin qarşısında duran əsas vəzifələrdən biridir. Bu məqsədlə neftemalı müəssisələrində obyekt qüvvələrinin effektiv fəaliyyət göstərməsi, qəza risklərinin azaldılması və istehsalat prosesinin təhlükəsizliyinin təmin edilməsi mühüm əhəmiyyət daşıyır. Məqalədə neftayırma müəssisələrində fövqəladə hadisə təhlükəsi yarandıqda obyekt qüvvələrinin fəaliyyət rejimləri çərçivəsində həyata keçirdiyi tədbirlərin ardıcıllığı göstərilmişdir. Təhlükə potensiallı obyektlərdə mülki müdafiə sisteminin əhəmiyyəti, fövqəladə hallara hazırlıq səviyyəsi və neftayırma müəssisələrində tətbiq olunan təhlükəsizlik mexanizmləri təhlil olunmuşdur. Fövqəladə hadisələrin idarə olunmasında obyektin mülki müdafiə qüvvələrinin koordinasiyasının təmin olunmasında Fövqəladə Hallar Komissiyasının rolu xüsusi vurğulanmışdır.

***Açar sözlər:*** *mülki müdafiə, obyekt, fövqəladə hadisə, neft, müəssisə zavod, tədbir*

**Ilgar Dadashov**
Academy of the Ministry of Emergency Situations
https://orcid.org/0000-0002-1533-1094
UOT 35.08-057.17
ilgardadashov.69@gmail.com
**Huseyn Piriyev**
Academy of the Ministry of Emergency Situations
https://orcid.org/0009-0005-9632-5508
hpiriyev95@mail.ru

# Sequence of Measures Taken by Facility Forces According to Operating Modes in the Event of an Emergency at Oil Refineries

**Abstract**

Accidents occurring in oil refineries, along with environmental consequences, pose a serious threat to human life and the production process. Ensuring safety in oil refineries and minimizing accident risks is one of the main tasks facing modern industry. For this purpose, the effective operation of facility forces in oil refineries, reducing accident risks and ensuring the safety of the production process are of great importance. The article shows the sequence of measures taken by the facility forces within the framework of their operational regimes when an emergency situation arises at oil refineries. The importance of the civil defense system at potentially dangerous facilities, the level of preparedness for emergencies, and the security mechanisms applied at oil refineries were

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

analyzed. The role of the Emergency Commission in ensuring the coordination of the facility's civil defense forces in managing emergencies was especially emphasized.

***Keywords:*** *civil defense, object, emergency event, oil, enterprise, factory, event*

## Giriş

Mülki müdafiənin xüsusi tədbirlərini yerinə yetirmək, bu məqsədlə qüvvə və vasitələr hazırlamaq, qəza xilasetmə və digər təxirəsalınmaz işlər aparılarkən mülki müdafiə qüvvələrinin fəaliyyətini təmin etmək üçün yerlərdə mülki müdafiə xidmətləri yaradılır. Mülki müdafiə sistemində təsərrüfat obyektləri(müəssisələr) mühüm yer tutur. Təsərrüfat obyektləri(müəssisələr)mülki müdafiənin təşkilində vacib rola malikdir və əsas mərhələdir. Bütün mülki müdafiə tədbirlərinin bünövrəsi məhz burada qoyulur. Obyekt dedikdə idarə, müssisə, təhsil müəssisəsi və digər müəssisələr nəzərdə tutulur. Oyektdə (məktəblərdə, universitetlərdə) mülki müdafiənin təşkil edilməsi və vəziyyəti üçün bu obyektin rəhbəri (direktor, rektor) məsuliyyət daşıyır. Obyektdə mülki müdafiə - fəhlə, qulluqçu, gəncləri, tələbələri (şagirdləri) qabaqcadan müasir qırğın vasitələrindən mühafizəyə hazırlamaq, obyektin fövqəladə hallarda sabit işləməsi üçün şərait yaratmaq və vaxtında qəza – xilasetmə və digər təxirəsalınmaz işlər (Qəza-xilasetmə və digər işləri) görmək, təbii fəlakət və istehsalat qəzalarının nəticələrini ləğv etmək üçün yaradılır.

**Tədqiqat**

Fövqəladə hadisələr baş verdikdə əsas tədbirlər işçilərin həyatının xilas edilməsinə və sağlamlığının qorunmasına, ətraf mühitə vurulan ziyanın və maddi itkilərin həcminin azaldılmasına, hadisələrin nəticələrinin aradan qaldırılmasına, qəza – xilasetmə və digər təxirəsalınmaz işlərin aparılmasına yönəldilir.

**Məsələnin qoyuluşu.** Baş vermiş fövqəladə hadisə zamanı rəhbər heyət və mülki müdafiə qüvvələrinin şəxsi heyətinin xəbərdarlığı təsdiq olunmuş sxemə əsasən həyata keçirilir. Fövqəladə hadisə baş verən ərazidə qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması barədə qabaqcadan verilmiş qərarın dəqiqləşdirilməsi məqsədilə kəşfiyyat aparılır, yaranmış vəziyyət öyrənilir, real şərait qiymətləndirilərək cəlb olunacaq qüvvələrin sayı və tərkibi dəqiqləşdirilir, görüləcək işlərin ardıcıllığı müəyyən edilir, hadisələrin inkişafı proqnozlaşdırılır.

Fövqəladə halların nəticələrini aradan qaldırmaq üçün qəza-xilasetmə və digər-təxirəsalınmaz işlər aparılacaq əraziyə obyektdə yaradılmış hərbiləşdirilməmiş mülki müdafiə dəstələri cəlb olunur. Kimyəvi zəhərlənmə (radioaktiv çirklənmə) zamanı işçilər kollektiv mühafizə qurğularında daldalanır və fərdi mühafizə vasitələrindən istifadə edir ()Azərbaycan Respublikası Nazirlər Kabineti, 1992).

**Əsas hissə.** Fövqəladə hallar zamanı zədələyici amillərindən işçilərin mühafizəsi üçün xilasetmə işlərinə və tibbi yardımın göstərilməsinə xüsusi diqqət ayrılır. Müalicə və təxliyə tədbirlərinin yerinə yetirilməsinə obyektin tibb qüvvələri ilə yanaşı ərazidə yerləşən səhiyyə təşkilatlarının (tibb müəssisələrinin) qüvvələrinin də cəlb edilməsi planlaşdırılır.

a)Yaxınlıqda yerləşən və istehsalat prosesində güclü təsiredici zəhərli maddələr istifadə edən obyektlərdə qəza baş verdikdə:

- qəza barədə məlumat daxil olduqdan sonra 10-15 dəqiqə ərzində növbətçi mühəndis tərəfindən obyektin işçiləri kimyəvi zəhərlənmə təhlükəsi barədə xəbərdar edilir;
- Mülki müdafiə və hərbi səfərbərlik şöbəsi tərəfindən 15 dəqiqə ərzində yaranmış vəziyyət barədə rayon Fövqəladə hallar və Mülki Müdafiə şöbəsinə məlumat çatdırılır;
- 15 dəqiqə ərzində (iş vaxtı) rəhbər heyət və Fövqəladə Hallar komissiyasının üzvləri toplanır və obyektin Mülki Müdafiə rəhbəri onlara müvafiq tapşırıqlarını verir;
- Mülki müdafiə və hərbi səfərbərlik şöbəsi rəisi rəhbərliyi altında radiasiya-kimya müşahidə postunun rəisi zəhərlənmə zonasında kəşfiyyatın aparılmasını yerinə yetirir, təhlükəsiz istiqaməti müəyyənləşdirmək üçün zəhərli buludun hərəkət istiqamətini müşahidə edir, torpaq və havadan nümunələrin götürülməsini, analiz üçün göndərilməsini, zəhərlənmə zonasının sərhədlərinin təyin olunmasını təmin edir;
- Fövqəladə hallar komissiyası 20 dəqiqə ərzində kəşfiyyat məlumatlarına əsasən şəraiti qiymətləndirir, işçilərin mühafizəsi məqsədilə təhlükəsiz zonanı müəyyən edərək işçilərin sığına-

caqlarda yerləşdirilməsi, xəsarət alanlara ilkin tibbi yardım göstərilməsi və digər təxirəsalınmaz tədbirlərin yerinə yetirilməsi barədə qərar qəbul edir;

- Fərdi mühafizə vasitələrinin paylama məntəqələrinin qüvvələri 1saat ərzində obyektin işçilərinə fərdi mühafizə vasitələrinin paylanmasını təmin edir;
- Fövqəladə hallar komissiyasının qərarı ilə köçürmə komissiyası tərəfindən lazım olarsa 1.5 saat ərzində işçilərin mühafizəsi məqsədilə onların təhlükəsiz ərazilərə təcili təxliyə edilməsi təşkil olunur;
- 30 dəqiqə ərzində tibb məntəqəsinin və sanitar postunun qüvvələri zərərçəkənlərə tibbi yardımın göstərilməsini təmin edir;
- qəza-texniki və xilasetmə manqası qəza-xilsetmə və digər təxirsəsalınmaz tədbirləri həyata keçirir (Heydər Əliyev adına Neft Emalı Zavodu);
- b) Obyektdə yanğın və partlayış baş verən zaman növbətçi mühəndis dərhal obyekt rəhbərinə, Fövqəladə Hallar Komissiyasının sədrinə, Mülki müdafiə və hərbi səfərbərlik şöbəsinin rəisinə, yanğından mühafizə dəstələrinə, 101 və 112 xidmətlərinə telefon vasitəsilə məlumat verir;
- - 10 dəqiqə ərzində baş vermiş hadisə barədə obyekt işçiləri növbətçi mühəndis tərəfindən xəbərdar edilir, obyektin Mülki Müdafiə rəhbəri tərəfindən işçilərin təhlükəli yerlərdən çıxarılması təşkil edilir;
- 15 dəqiqə ərzində obyektin Mülki Müdafiə rəhbəri Fövqəladə Hallar Komissiyasının üzvlərinin toplanmasını təşkil edir, real vəziyyəti onlara çatdırır və konkret tapşırıqlarını verir;
- hadisə yerinə kəşfiyyat manqası göndərilir, hadisənin miqyası, zərərçəkənlərin təxmini sayı, dağıntılar və yanğın haqqında ilkin məlumatlar toplanır;
- Fövqəladə Hallar komissiyasının sədri kəşfiyyatın təqdim etdiyi məlumatlar əsasında 10-15 dəqiqə ərzində vəziyyəti qiymətləndirir və qəza-xilasetmə işlərinin aparılması üçün müvafiq göstərişlər verir;
- Mülki müdafiə və hərbi səfərbərlik şöbəsi nəticələrin aradan qaldırılması üçün 30 dəqiqə ərzində qəza-texniki, xilsetmə və sanitar manqalarını hazır vəziyyətə gətirir;
- obyektin ərazisində yerləşən tibb məntəqəsində hadisədən zərər çəkənlərə ilkin tibbi yardım göstərilir, ağır vəziyyətdə olanların rayonun tibb müəssisələrinə göndərilməsi təmin edilir;
- fövqəladə hallar zamanı yanğın baş verərsə, onun söndürülməsi üçün yanğından mühafizə dəstələrin və hərbiləşdirilmiş yanğın hissələrin qüvvələri cəlb olunur (Azərbaycan Respublikası Nazirlər Kabineti, 1998).




***Sxem 1.Obyektdə mülki müdafiənin təşkili sxemi***

Fövqəladə hallar zamanı xilasetmə və digər təxirəsalınmaz tədbirlərin yerinə yetirilməsi, işçilərin, maddi və mədəni sərvətlərin mühafizəsi məqsədilə zəruri ləvazimatların toxunulmaz ehtiyatının yaradılması, o cümlədən təşkilati məsələlər zavodun Fövqəladə Hallar Komissiyası tərəfindən qabaqcadan təşkil olunur.

Fövqəladə hadisə baş verdikdə ilk növbədə müvafiq olaraq fövqəladə hallar komissiyasının yaratdığı ümumi kəşfiyyat qrupu baş vermiş hadisənin miqyasını, mühəndis qurğularının və kommunikasiya şəbəkələrində dağıntıların dərəcəsini, işçilərə və maddi sərvətlərə dəyən ziyan barədə vəziyyəti öyrənir. Həmçinin baş vermiş hadisənin daha dəqiq öyrənilməsi məqsədilə mütəxəssislərdən ibarət xüsusi kəşfiyyat qrupu xüsusi kəşfiyyatı (kimyəvi, radioaktiv, ekoloji və s.) yerinə yetirir. Kəşfiyyatın əldə etdiyi məlumatlara əsasən fövqəladə hallar komissiyası xilasetmə və digər təxirəsalınmaz işlərin aparılmasına cəlb olunacaq mülki müdafiə qüvvələrinin tərkibi və sayını müəyyən edir. Fövqəladə hadisələr baş verdikdə xəsarət alanlara ilkin tibbi yardım zavodun tibb məntəqsinin işçiləri və sanitar manqasının üzvləri ilə, eləcə də özünə və qarşılıqlı yardım göstərilməsi yolu ilə həyata keçirilir (Ocaqov, 2002).

Mülki müdafiə və hərbi səfərbərlik şöbəsinin rəisi tərəfindən şərait haqqında rayon Fövqəladə hallar və Mülki Müdafiə şöbəsi müntəzəm olaraq ətraflı məlumatlandırılır. Əgər baş vermiş hadisə rayon ərazisini əhatə edərsə və ya iri miqyaslı olarsa xəsarət alanlara ilkin tibbi yardımın göstərilməsi, sanitar-gigiyenik və epidemiya əleyhinə tədbirlərin həyata keçirilməsi məqsədilə, fövqəladə hallar komissiyasının sədri rayon Fövqəladə hallar və Mülki müdafiə şöbəsi və rayon fövqəladə hallar komissiyasının sədri ilə məlumat mübadiləsi aparır və yardım üçün rayon xidmətlərinin cəlb olunması barədə müraciət edir.

Fövqəladə hallar zamanı işçilərin təxliyyə olunması, xəsarət alanların tibb müəssisələrinə çatdırılması nəqliyyat şöbəsi tərəfindən həyata keçirilir.Mülki müdafiə qüvvələrinin və işçilərin lazımi əmlak, ərzaq malları, su, yanacaq-sürtgü və digər maddi vasitələrlə vaxtında və tam həcmdə təminatını zavodun təchizat şöbəsi həyata keçirir. Fəhlə yeməkxanalarında 300 nəfərin birdəfəlik isti qida ilə təmin olunması təşkil edilir.

Fövqəladə hallar komissiyası, Mülki müdafiə və hərbi səfərbərlik şöbəsi fövqəladə hallar şəraitində qərar qəbul edilməsi üçün hava şəraitinin vəziyyəti haqqında və təhlükəli hidrometeoroloji dəyişiliklər haqqında məlumatları gündəlik hidrometeoroloji proqnozlara əsasən vəziyyəti qiymətləndirir və fövqəladə halların dərəcəsindən asılı olaraq, işçilərin təhlükəsizliyi üzrə tədbirlərin keçirilməsi, həmçinin maddi və mədəni sərvətlərin qorunması sahəsində əlavə tapşırıqlarını verir (İsmayılov, 2012).

Radiasiya və kimyəvi zəhərlənmədən mühafizə məqsədilə növbədə olan işçilər zavodun balansında olan sığınacaqlarda yerləşdirilir. Mülki müdafiə və hərbi səfərbərlik şöbəsi tərəfindən fərdi mühafizə vasitələrinin paylama məntəqələri təşkil olunur və işçilərə fərdi mühafizə vasitələri paylanılır. Zərbə ocaqlarında, radioaktiv çirklənmə zonalarında sanitar təmizləmə, deqazasiya və dezaktivasiya işləri Rayon Gigiyena və Epidemologiya Mərkəzi, epidemiya əleyhinə səyyar dəstələr, Mülki müdafiə qüvvə və vasitələri tərəfindən həyata keçirilir (Fövqəladə Hallar Nazirliyi).

Zavodlarda, o cümlədən sex və qurğularda hər bir işçi yanğın təhlükəsizliyi qaydalarını bilməli, ona riayət etməli, bununla yanaşı icrası məcburi olan müvafiq təlimatlardakı tələblərə əməl etməlidirlər. Belə ki, birinci növbədə yeni işə qəbul olan bütün fəhlə və qulluqçular yanğından mühafizə məsələləri ilə bağlı təlimatlandırılmalıdırlar. Müəssisənin hər bir işçisi öz iş yerinin yanğın-texniki xüsusiyyətlərini, yanğınsöndürmə vasitələrinin yerini, onların təyinatını və istifadə qaydalarını bilməlidir. Mühəndis və texniki işçilər, xidməti heyətin hər bir üzvü yanğın və qəza zamanı onun üzərinə qoyulmuş vəzifələri icra etməyi bacarmalıdır (Fövqəladə Hallar Nazirliyi, 2013).

Neft emalı müəssisəsinin işçiləri yaxınlıqdakı telefonun və habelə xəbərdarlıq qurğusunun yerini bilməli və yanğından mühafizə xidmətini baş verəcək yanğın haqqında ətraflı məlumatlandırmaq vərdişlərinə yiyələnməlidirlər.

Yanğın təhlükəsizliyi qaydaları hər hansı bir şəkildə pozularsa, yanğınsöndürmə vasitələrindən başqa məqsədlər üçün istifadə olunarsa, yollar, keçidlər, bina və qurğulara yanaşmaq yolları tutularsa, yanğın avtomobillərinin hərəkəti, çevik manevr etməsi üçün digər maneələr yaranarsa, yollar çirkli

saxlanılarsa, bu haqda dərhal zavodun rəhbərliyinə, yanğın təhlükəsizliyi üçün məsul şəxsə və obyekti mühafizəyə götürmüş yanğından mühafizə hissəsinə xəbər verilməli, yanğın təhlükəsizliyinə zidd halların aradan qaldırılması üçün tədbir görülməlidir (Korobko, 2012).

## Nəticə

Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması zamanı obyektin Mülki müdafiə qüvvələri ilə qarşılıqlı fəaliyyətin təşkili zamanı fövqəladə hallar haqqında məlumatların toplanması və mübadiləsi qaydası müəyyən edilir. Rayon fövqəladə hallar və mülki müdafiə şöbəsindən, rayon fövqəladə hallar komissiyasından və ya qonşu obyektlərin fövqəladə hallar komissiyalarından baş vermiş fövqəladə hal barədə məlumat daxil olduqda, dərhal zavodun fövqəladə hallar komissiyası toplanır. Mülki müdafiə qərargahı adları çəkilən Mülki müdafiə idarəetmə orqanları ilə əlaqə yaradaraq baş vermiş hadisə barədə daha müfəssəl və dəqiq məlumatları öyrənir. Toplanmış məlumatları təhlil edir və Mülki müdafiə qüvvələrinin hazır vəziyyətə gətirilməsi, hadisənin genişlənərək zavodun ərazisinə keçməməsi və qonşu obyektə köməklik göstərilməsi barədə təkliflərini komissiyaya təqdim edir. Mütəmadi olaraq məlumat mübadiləsi aparılır, hadisənin inkişafı nəzarətdə saxlanılır və müvafiq tədbirlər yerinə yetirilir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Nazirlər Kabineti. (1992, 28 dekabr). *Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalini mühafizənin əsas prinsipləri haqqında qərar* (Qərar № 700). Bakı.
2. Azərbaycan Respublikası Nazirlər Kabineti. (1998, 25 sentyabr). Qərar № 193. Bakı.
3. Fövqəladə Hallar Nazirliyi. (2013). *Neft emalı və neft-kimya sənayesində təhlükəsizlik qaydaları*. Bakı: Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Dövlət Elmi-tədqiqat İnstitutu.
4. Heydər Əliyev adına Neft Emalı Zavodu. (n.d.). *MM planı*. [Daxili sənəd].
5. Ocaqov, H. O. (2002). *Rəhbər heyətin fövqəladə hallarda fəaliyyətə və idarəetməyə hazırlanması*. Bakı: Çaşıoğlu.
6. İsmayılov, İ. O. (2012). *Neft və qazın hasilatı, emalı, nəqli və saxlanılması obyektlərində təhlükəsizlik*. Bakı.
7. Korobko, V. I. (2012). *Okhrana truda, uchebnoye posobiye dlya studentov vuzov*. Moskva, 240.
8. Fövqəladə Hallar Nazirliyi. (n.d.). Xəbərlər. http://www.fhn.gov.az/newspaper/?type=view_news&news_id=4951